# QƏHRƏMANLAR ÖLMÜR,

## *qəhrəmanlıq isə əbədi anlayışdır*

Əgər qəhrəmanlar ölsəydi... əgər açıq-açığına ölüm adlanan gücə qarşı duran iradə olmasaydı, onda heç qəhrəmanlar haqqında danışmağa dəyməzdi. Çünki bəşərin güc mənbəyi, çünki insanlığın şərə qarşı duruş qaynağı onun inamı və inadı ilə bağlıdır.

İnsan inamına güvənir və buna görə də özünün bütün mənəvi potensialını səfərbrəliyə alır. Ona qarşı gələn gücə özünü sipər edə bilir. Əlbəttə, bu yolda insanın mənəvi qüdrəti kifayət qədər əhəmiyyət kəsb edir. Əgər insan ruhən inam sahibi deyilsə, o mütləq ardıcıl olaraq gələn təziqlərə qarşı dura bilməyəcək. Nəinki üzbəüz döyüşdə, hətta qabaqcadan mənnən, ruhən məğlub olacaq.

Söz-sənət sahibləri həmişə mənsub olduqları mənəvi dəyər mühitinin inamını qorumağa çalışır. Və bu yöndə öz potensiallarını, imkanlarını sərf etməkdən çəkinmillər.

Şəddad Cəfərovun uşaqlıq dövrü müharibə zamanına düşüb. O ən azı beş illik uşaqlıq yaddaşında həyatının faşizmə qarşı aparılan döyüşün dəhşətləri ilə üzbəüz qalıb. Və həmin o az yaşın içində müharibənin nə demək olduğu, nə qədər qaranlıq olsa da, onun yaddaşında kifayət qədər iz buraxıb. Ona görə də Şəddad müəllim bu gün yazılarında, ədəbi hekayətlərində müharibə qəhrəmanları ilə bağlı publisistik oçerklərində "İkinci cahan" savaşının ölüm-dirim mahiyyəti daşıyan mənzərələrinə kifayət qədər yer ayıra bilir.

Şəddad Cəfərovun ədəbi publisistik fəaliyyətində onun yaradıcılıq yolunun ən üstün tərəfi kimi qeyd olunan cəhəti bundan ibarətdir ki, o, bundan sonrakı nəsli ötən zamanların həyatı ilə yaxından tanış etmək istəyir. İstəyir ki, bu günün gənc nəsli Vətəni qorumaq yolunu ötən zamanların fonunda görünən insanların timsalı ilə öyrənsin. Əgər bugünki nəsil keçmiş zamanla əlaqələri itirmiş olsa, onda varislik əlaqəsi qırılar. -Şəddad Cəfərov belə düşünür. Yəqin ki, hər bir yaradıcı adama xas olan keyfiyyət kimi Şəddad Cəfərovun təbiətində də ən üstün, insani xüsusiyyətləri gələcək nəslə ötürmək istəyi var. Elə bu səbəbdən də o, ədəbi yaradıcılığında uşaqlıq dövrünə aid olan zamana münasibət daha çox özünü göstərir. Şəddad müəllim uzaq illərin o tərəfində qalmış zamanı yazıya gətirmək baxımından daha çox həmin dövrün müharibə qəhrəmanlarına, onların tale yoluna işıq tutmağı üstün bilir.

"İkinci Cahan" savaşının hər bir əsgəri qəhrəman obrazıdır. Ancaq onların təbiətlərində daşıdıqları bu qəhrəmanlıq mahiyyətini yazıya gətirmək hər kəsə nəsib olmur. Bunun üçün gərək həmin dövrün insanlarına xüsusi rəğbətin olsun. Biləsən ki, həmin insanlar bütöv olan Vətən uğrunda vuruşublar. Və bu savaşın haqlı tərəfini dərk edə biləsən. İndi daha çox dəbdədir Vətən uğrunda savaşa arxa çevirib, bir növ Vətənə xəyanət edib əks tərəfə keçən qüvvələri də təbliğ edirlər.

Şəddad Cəfərov açıq gözlü bir yazıçı kimi ikinci cahan savaşının qəhrəmanlarını təbliğ etməyə daha çox üstünlük verir. Axı Azərbaycanın yeddi yüz min adamı səfərbərliyə alınmışdır. Bunun demək olar ki, düz yarısı İkinci Cahan savaşında canını Vətən naminə qurban vermişdi.

Mübahisəli məqamlar demək olar ki, yoxdur. Ona görə ki, bəsəriyyətin özü faşizmə qarşı vuruşurdu. Bütün dünya ölkələri faşizmə qarşı müharibəyə qalxmışdı. Bəşəriyyət öz mədəniyyətini faşizmdən qorumaq istəyirdi. Bu mənada faşistlərin tərəfinə keçməyə necə haqq qazandırmaq olar. Şəddad Cəfərovun ədəbi qəhrəmanları faşizmə qarşı döyüşən insanlardır. Onlardan biri də Kazım Ələkbərovdur.-Şəddad Cəfərovun təqdimatında oxuyuruq: "Bəşəriyyət tarixində an dəhşətli hərb sayılan 1941-1945 ci illərin müharibəsində milyonlarla adam iştirak etmişdir. Bu müharibənin əziyyətli, odlu-alovlu yollarından keçənlərdən biri də Ələkbərov Kazım Hacı oğlu olmuştur. Oder çayının sahillərinədək uzanmış onun döyüş yolu neçə-neçə cəbhə xətlərindən, nəhəng istehkamlardan, bataqlıqlardan, su hövzələrindən keçmişdir. Həmin dövrdə K.Ələkbərov bir çox döyüşlərdən çıxmış, ağır cəbhə həyatından mətinlik, mərdlik, qorxmazlıq kimi yaxşı keyfiyyətləri öyrənmişdir". Müəllif təfərrüata varmadan elə ilk qeydlərindəcə döyüşçü Kazımın gücünü, qüdrətini, onun yenilməz azərbaycanlı təbiətini oxucuya çatdırır. Bütün bunlar onu göstərir ki, Vətən yolunda can qoymuş hər hansı bir şəxsin taleyi heç bir vaxt qaranlıqda qalmır. Bununla bahəm insan övladı olan gələcək nəsil də qəbul edir ki, onun taleyini baxmayaraq ki, yarı yolda düşmən gülləsinə tuş gəlir, kimsə gələcəkdə araşdıracaq, axtaracaq, arayacaq. Beləliklə, Kazım Ələkbərov adlı müharibə qəhrəmanının taleyini biz Şəddad Cəfərovun "Döyüşdə şəxsi nümunə" adlanan hekayətində daha aydın görə bilirik. Müəllif bir az qabağa qayıdır: "...Pedaqoji İnstitutu bitirən kimi K.Ələkbərov Xaçmaz rayonunun ucqar kənd məktəbinə işə göndərilmişdir. Orada uşaqlara fizika və riyaziyyatdan dərs demişdir. 18 yaşlı gənc ordu sıralarına çağırılmış və Bakı Zenit-Artilleriya məktəbinə göndərilmişdir. Kiçik leytenant rütbəsi almış hərbi məktəb məzununa I Belorusiya cəbhəsinə təyinat verilmişdir. 546-cı kiçikçaplı zenit alayında atış taqımının komandiri olmuş K.Ələkbərov Belorusiyanın, Polşanın azad olunmasında fəal iştirak etmişdir. Həmin illərin lövhələrini veteran, yeri düşdükcə gənclərə danışır, onları ataların, babaların keçdikləri müharibə həyatı ilə tanış edir". Bu qısa xronika göstərir ki, azərbaycanlı oğlu uzaq cəbhələrdə Vətənin mənafeyini necə sədaqətlə, necə yüksək mənəvi güclə qoruyur. Onun təbiətindəki qorxmazlıq, cəsarət sözün həqiqi mənasında bu gün üçün bir kitabdır, örnəkdir. Əslində, elə müəllifin də məqsədi odur ki, öz qəhrəmanının həyat yolunu, daha doğrusu, döyüş yolunu bu günki gənc nəslə kifayət qədər gücdə göstərə bilsin. Təbiidir ki, azərbaycanlı üçün Polşa, digər Avropa ölkələri, o cümlədən indiki postsovet məkanı yad idi. Ancaq orası da var ki, Hitler çox səbirsizliklə Qafqaza, eləcə də Azərbaycana - Baklya can atırdı. Və qətiyyən Azərbaycana və Bakıya xoşbəxtlik gətirmək niyyətində deyildi. O, Azərbaycanın sərvətlərini, Bakının neftini ələ keçirmək istəyirdi. Məşhur filmdəki epizod Hitlerin həqiqi istəyi idi. Qafqaz tortu və Bakı. Necə onu asanlıqla kəsib götürmək, nuş etmək istəyi vardı. Bunları bildiyimiz halda necə Vətənə arxa çevirib faşizmlə - dünyanın imtina etdiyi bir düşüncə ilə yaxınlaşmaq, dilləşmək, onunla birləşmək olardı. Şəddad Cəfərovun müharibə hekayətlərinin məğzində bu həqiqət xüsusi əhəmiyyət kəsb edir. Müəllif yazır: "Pripyat çayı üzərindəki körpüdən qoşunlarımızın maneəsiz keçmələrinə yaradılan şərait, az sonra böyük bir hücum əməliyyatının, hərb tarixinə «Baqration» əməliyyatı kimi daxil olacaq hücum kampaniyasının başlanmasına təməl yaratmışdır". Burada "Baqration" əməliyyatı adlanan hərbi termin yada salınır. Elə bu terminin özü də bu günün gənclərini çox da qədim olmayan XIX əsrin əvvəlinə aid olan tarixi hadisələrin izinə doğru aparır. Demək, bizim qəhrəmanımız ikinci cahan savaşının ən dəhşətli və möhtəşəm səhifələrinin yazılmasında iştirak edir. Müəllif yeri gəldikcə ədəbi qəhrəmanının xatirələrinə istinad edir: "Veteranın yaddaşında həkk olunmuş döyüş lövhələrindən biri də Polşanın, xüsusilə Varşavanın düşməndən azad edilməsi ilə əlaqədardır. 1945-ci il yanvarın 17-də Sovet qoşunları, o cümlədən K.Ələkbərovun taqımı Varşavaya daxil oldular, tarmar edilmiş şəhəri faşistlərdən təmizlədilər. Həmin gün zenitçilər həm hava hücumlarından, həm də düşmən tanklarının həmlələrindən qorunmaq üçün dəfələrlə atəş mövqelərini dəyişir, bəzi hallarda isə topları, geniş magistrallarda, hətta döyüş üçün çox da yararlı olmayan yerlərdə düzür, düşmənin üzərinə fasiləsiz mərmilər yağdırırdılar. Bütün bu döyüşlər zenitçilərin döyüş təcrübəsini zənginləşdirir, onların düşmənə qarşı daha cəsarətlə, inamla vuruşmalarına kömək edirdi". Şəddad Cəfərov ədəbi qəhrəmanını ağır döyüşlər sınağından keçirərək ən baçlıcası dəqiq, ünvanlı, sənədli məqamlara istinad edərək, tarixi həqiqətlərə sadiq qalaraq azərbaycanlı döyüşçünün mərdliyini, o zamankı sovet ölkəsi uğrunda mətinliklə döyüşməyini xarakterizə edir. Və göstərir ki, ayrı-ayrı döyüşlərdə Azərbaycanlı igidlərin mərdliyi, igidliyi, dönməzliyi, qəhrəmanlığı ümumi qələbəni təmin etməyə necə əsaslı təsir göstərib. Biz Şəddad Cəfərovun təqdimatında Kazım Ələkbərovun həm döyüş yolunu izləyir, həm də düşmənin amansızlığını görürük: "1945-ci ilin baharında K.Ələkbərovun xidmət etdiyi zenit alayın bir sıra bölmələri piyadalarla, tankçılarla yanaşı faşistlərin ciddi möhkəmləndirilmiş müdafiə xəttinə - Oder çayın sahillərinə çıxdılar. Alman komandanlığı məhz burada Sovet qoşunlarının geniş hücumunu dayandırmaq istəyirdilər. Lakin onlar buna nail olmadılar. Qosunlarımız Oder çayını keçib orada plastarma yaratdılar, faşistlər burada ilk dəfə olaraq pilotsuz təyyarələrdən, radio ilə idarə edilən mərmilərdən istifadə etməyə başladılarsa da, qorxmaz zenitçilar, o cümlədən K.Ələkbərovun taqımı düşmənin hava hücumlarının qarşısını bacarıqla alırdılar. Bu döyüşdə düşmən bütün imkanlarından istifadə etməyə can atdı, qoşunlarımızın üstünə gecə-gündiz mərmilər, bombalar yağdırdı, böyük tələfat verilsə də, düşmən geri çəkilməyə məcbur oldu. Oder çayı üzərində gedən ölüm-dirim döyüşlərində qazanılan uğurlar qoşunlarımıza Berlinə - faşist Almaniyasının paytaxtına qəti hücum etməsi üçün geniş yollar açdı. Bu qələbənin qazanılmasında bütün qoşun növlərinin, o cümlədən K.Ələkbərovun komandası altında döyüşən zenitçilərin də xidməti az olmamışdır". Bu gün həm Kazım Ələkbərovun igidliyi, həm də düşmənin amansızlığı məsələsi indiki Qarabağ savaşı üçün kifayət qədər istinaddır. Nəsillərə təsir qaynağıdır. Bu gün də xəyanətkarlar meydana çıxır. Hətta uzaq Avropa ölkələrində, lap ermənistanın özündə olan azərbaycanlılar var ki, onlar ermənilərə satılıblar, ermənilərin istəyi ilə Vətənə niftət püskürürlər. Amma unudurlar ki, Azərbaycan bu döyüşdən də - Qarabağ savaşından da mərdanəliklə, qələbə ilə çıxacaq. Onda bu satqınlar başını harada saxlayacaq?

Şəddad Cəfərov bu günün Azərbaycan döyüşçüsünə xatırladır ki, unutmasın. Zaman gələcək onların hər birinin adı, ünvanı əbədi yaşarı bir kitaba yazılacaq. Həmin kitabı daha uzaq gələcəyin övladları qürurla oxuyacaqlar. Demək, Şəddad Cəfərov özünün seçdiyi, diqqətə çəkdiyi, tərənnüm elədiyi ədəbi qəhrəmanın taleyini bu günün üzündə ona görə aydın görür: "...Müharibə qurtardı. İllər bir-birini əvəz etdi, yaxasını 14 döyüş mükafatı bəzəyən, istefada olan leytenant Kazım Ələkbərov ömrünün 74-cü ilinə qədəm basmışdır. İndi saçlarına sanki ağ qar ələnmişsə də, o, həyat sevindir, qəlbən cavandır, enerjilidir. Müharibədən sonra o, jurnalist olmuş, universitetde qiyabi təhsil almışdır. Ömrünün 43 ili ərzində Azərbaycan Teleqraf Agentliyində, Kommunist və «Bakı axşam" qəzetində məsul vəzifələrdə çalışmışdır. Jurnalistlik fəaliyyəti dövründə Kazım Ələkbarov müxtəlif janrlarda minlərlə məqalə yazmışdır. Elmi kadrların hazırlanmasında olan qohumbazlıqlar, ali məktəb məzunlarının təyinat yerlərinə getməkdən boyun qaçırmaları və s. məsələlər barədə yazdığı məqalələr geniş ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Azərbaycan xalqı üçün ən çətin günərdə- erməni qəsbkarları torpaqlarımıza göz dikdikləri vaxtlarda - Azərbaycan Jurnalistlar Birliyinin qocaman üzvü Kazım Ələkbərov "Xalq qəzeti"ndə"Vətən sözü" rubrikası altında hərbi vətənpərvərlik mövzusunda bir sıra məqalələr dərc etdirmişdir. O, bu sahədə faaliyyətini indi də davam etdirir. Onun sinəsini bəzəyən "Qızıl qələm" mükafatı laureatı nişani, "SSRI maarif əlaçısı", "Azərbaycanın Qabaqcıl maarif xadimi" nişanları, evindəki kitab şkafında qorunan Azərbaycan Respublikası Ali Sovetinin və Bakı Şəhər Sovetinin Fəxri fərmanları veteranın əmək cəbhəsindəki xidmətlərinə verilən qiymətdir. K.Ələkbərov səkkiz ildir ki, Bakı Şəhər İcra Hakimiyyəti aparatının tərcümə və dərcetmə bölməsində böyük məsləhətçi vəzifəsində çalışır. Onun bacarığı və işgüzarlığı rəhbərlik tərəfindən yüksək qiymətləndirilir". Yaxşıdır, müəllif təqdir edir ki, döyüşçü unudulmur, istər ön mövqedə, istərsə də arxa cəbhədə... onun həyat yolu hər vaxt bu günün insanlarının diqqətində olur. necə ki, biz Şəddad Cəfərovun təqdimatında ikinci cahan savaşının qəhrəmanını dinləyirik: "-Mən ordu sıralarında cəmi dörd il xidmət etmişəm, - deyə K.Ələkbərov sözə başlayır, - lakin bu illər mənə çox şey vermiş və öyrətmişdir. Ordu mənə mərdlik, qorxmazlıq, möhkəm iradə, dözümlülük kimi gözəl keyfiyyətlər aşıladı. O, mənə eyni zamanda həyat uğrunda mübarizə aparmaq yolunu da öyrətdi. Bütün bu keyfiyyətlər jurnalistlik fəaliyyətində çox karıma gəlmişdir". Sanki, açıq gözlü bir döyüşçünü həqiqətlərə qiymət verə bilən bu günkü Qarabağ savaşçısını, qazisini dinləyə bilirik. Beləliklə biz inanırıq ki, insan inandığı, ideal uğrunda vuruşursa, onun dəyəri, onun kimliyi heç vaxt unudulmur. Biz daha çox bu savaşçıların sözünü ictimailəşdirməliyik. Əslində Şəddad Cəfərovun hekayətlərinin əsas mahiyyəti elə bu hekayətlə bağlıdır. O sözünün sonunu qəhrəmanın ölməzliyini təsdiq edən sözlərlə bitirir: "İstefada olan leytenant Kazım Hacı oğlu Ələkbərov döyüşdə əzmli, cəsarətli, qorxmaz və inadkar zenitçi, həyatda isə səmimi və təvazökar insan kimi qarşımızda durur.

Ona eşq olsun!" Şəddad Cəfərov yaddaşındakı müharibəni sözünün üstünə gətirə bilir. Bu düşüncələrin dəyəri ona görə yüksək əyarlıdır ki, biz yenə müharibədəyik. Biz Azərbaycan adlı məmləkəti qoruyan oğulları təqdir edirik. Satqınlara, xəyanətkarlara isə "yox" deyirik.

Şəddad Cəfərov da bu gün Azərbaycan ordusu ilə birgə döyüşçüdür. Azərbaycan həqiqətləri uğrunda döyüşçüdür.

*22.07.2020*